**UOT 75**
https://doi.org/10.59849/2218-4783.2026.2.227

# AZƏRBAYCAN RƏSSAMLIQ SƏNƏTİNDƏ QADIN TƏSVİRLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

# COMPARATIVE ANALYSIS OF FEMALE IMAGES IN AZERBAIJANI PAINTING ART

**Şəmsiyyə ZALOVA***

**XÜLASƏ**

Tarix boyu Azərbaycan rəssamlarının yaradıcılığında qadın mövzusu öz zənginliyi və çoxşaxəli fəlsəfi mahiyyəti ilə seçilmişdir. Bu əsərlərdə Azərbaycan qadını müxtəlif süjetlərdə, istər ailə dəyərlərinin qoruyucusu kimi, istərsə də ictimai və mədəni proseslərin fəal iştirakçısı kimi təsvir edilmişdir.

XX əsrdən başlayaraq rəssamlıq sənətimizdə qadın təsvirləri mövzusu yeni bir mərhələyə qədəm qoymuşdur. Belə ki, rəssamlar artıq qadın obrazlarının daxili dünyası ilə birlikdə onların ictimai fəallığını da təsvir edərək, qadını sosial proseslərin ayrılmaz bir parçası kimi təqdim etməyə başlamışlar. Mikayıl Abdullayev, Tahir Salahov, Nadir Əbdürrəhmanov, Tağı Tağıyev kimi bir çox rəssamlar qadın qəhrəmanlarının mənəvi və estetik təsvirlərini öz əsərlərində rəsm etmişlər. Onların kətan üzərində canlandırdıqları qadın obrazları təkcə zahiri gözəlliyi deyil, həm də Azərbaycan qadınına xas olan milli-mənəvi saflığı, mətanəti və zərifliyi əks etdirmişlər. Mikayıl Abdullayevin "Azərbaycanın çay mütəxəssisləri", "Çəltikçi qızlar", Nadir Əbdürrəhmanovun "Dağlarda bahar", "Dağlı qadın", Tağı Tağıyevin "Maral Rəhmanzadə" və s. kimi əsərləri fərqli rəssamların baxış bucağından qadın obrazlarına yanaşmalarını müqayisə etmək, eləcə də dövrün estetikasının sənətdəki inikasını dəyərləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Əgər Mikayıl Abdullayev, Nadir Əbdürrəhmanov yaradıcılığında qayğıkeş ana və zəhmətkeş qadın obrazları üstünlük təşkil edirdisə, Tahir Salahovun əsərlərində biz həm sarsılmazlığı və iradəsi ilə seçilən, həm də müasir Azərbaycan qadınının simasını görürük.

Milli rəssamlıq sənətimizdə qadın təsviri mövzusundan bəhs edərkən, bu sahədə yeni istiqamətlər müəyyən edən Maral Rəhmanzadə, Vəcihə Səmədova, Xalidə Səfərova və Elmira Şahtaxtinskaya kimi qadın rəssamların da adını xüsusilə vurğulamaq lazımdır.

**Açar sözlər:** *Azərbaycan, rəssam, qadın təsvirləri, qadın rəssamlar.*

**ABSTRACT**

The theme of women in the works of Azerbaijani artists has been distinguished by its richness and multifaceted philosophical essence throughout history. In these masterpieces, the Azerbaijani woman is depicted within various Narratives, both as a guardian of family values and as an active participant in social and cultural processes.

Starting particularly from the 20th century, female depictions in our painting art entered a new phase. Thus, artists began to characterize women as an integral part of social processes by portraying the inner world of female characters alongside their social activity. Many artists, such as Mikayıl Abdullayev, Tahir Salahov, Nadir Əbdürrəhmanov, and Tağı Tağıyev, reflected the spiritual and aesthetic portrayals of female protagonists in their works. The female figures they brought to life on canvas combined outward beauty, the national-spiritual purity, fortitude, and elegance inherent to the Azerbaijani woman. Works such as Mikayıl Abdullayev's "Tea Specialists of Azerbaijan" and "Rice Farmers," Nadir Əbdürrəhmanov's "Spring in the Mountains" and "Mountain Woman," and Tağı Tağıyev's "Maral Rəhmanzadə" are of particular importance for comparing the perspectives of different artists on female characters, as well as for deeply understanding the reflection of the era's aesthetics in art. While the images of the caring mother and the hardworking woman predominated in the works of Mikayıl Abdullayev and Nadir Əbdürrəhmanov, in Tahir Salahov's works, we see the face of the modern Azerbaijani woman, distinguished by her unwavering spirit and will.

*AMEA Naxçıvan Bölməsi, e-mail: wems.zal@mail.ru
ORCID: 0009-0008-7370-7257

When discussing the theme of women in our national painting art, it is also necessary to emphasize the contributions of female artists such as Maral Rahmanzadeh, Vajiha Samadova, Khalida Safarova, and Elmira Shahtakhtinskaya, who defined new directions in this field.

**Keywords:** *Azerbaijan, artist, female depictions, female artists.*

**GİRİŞ**

Azərbaycan rəssamlıq sənətində qadın təsviri tarixən zəngin, estetik və ideya yükü daşıyan əsas mövzulardan biri olmuşdur. Müxtəlif tarixi mərhələlərdə bir çox rəssamımız tərəfindən yaradılmış əsərlərdə Azərbaycan qadını ana, həyat yoldaşı, əməkçi, ziyalı və ictimai fəal şəxs kimi çoxşaxəli rollarda təqdim olunmuşdur. Xüsusilə XX əsrdən etibarən milli rəssamlıq sənətimizdə qadın obrazının bədii həllində yeni ideya və estetik yanaşmalar müşahidə edilmişdir. Bu dövrdə rəssamlar qadını təkcə məişət mühitində deyil, həm də sosial və mədəni proseslərin fəal iştirakçısı kimi təsvir etmiş, onun ictimai mövqeyini də ön plana çıxarmışlar. Bu sənət təkamülünün formalaşmasında Mikayıl Abdullayev, Tahir Salahov, Nadir Əbdürrəhmanov kimi rəssamların yaradıcılıq axtarışları həlledici rol oynamışdır. Belə ki, həmin rəssamlar tərəfindən yaradılan portret və süjetli kompozisiyalardakı qadın obrazları həm məişətin səmimiyyətini, zəhmətkeş insanın mənəvi ucalığını, həm də ziyalı simanı və müasir xarakteri əks etdirirdi. Bununla da rəssamlıq sənətimizdə qadın təsvirləri sadəcə bir surət olmaqdan uzaqlaşaraq, dövrün ictimai, mədəni mənzərəsini tamamlayan əsas amil kimi təqdim olunmuş, mühüm obraza çevrilmişlər.

**ƏSAS HİSSƏ**

Mikayıl Abdullayevin portret yaradıcılığı Azərbaycan qadınının həm estetik, həm də mənəvi simasını əks etdirən zəngin sənət salnaməsi kimi dəyərləndirilə bilər. Rəssam müxtəlif sosial təbəqələrdən, fərqli peşə və həyat tərzinə malik qadın obrazlarını böyük sənətkar ürəyi ilə təsvir etmişdir. Rəssamın əsərlərini izlədikcə görürük ki, onun üçün qadın obrazı yalnız zahiri gözəlliyin ifadəsi deyil, həm də milli xarakterin, əməksevərliyin, mənəvi zənginliyin simvoludur. M.Abdullayevin qadın qəhrəmanları arasında yer alan ana fiquru həm sevgi və qayğının, həm də milli ailə dəyərlərimizin simvolu kimi təqdim olunmuşdur. Rəssamın anasına həsr etdiyi portret əsərləri bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Bu portretlərdə ana obrazı sadə, təmkinli və eyni zamanda dərin mənəvi aləmi ilə təsvir olunmuşdur.

Rəssamın 1955-ci ildə Masallıya səfəri zamanı yaratdığı silsilə rəsmlərin arasında seçilən “Sevinc” tablosu, rəssamın lirik-psixoloji portret janrına verdiyi ən uğurlu töhfələrdən biri olmaqla yanaşı, həm də onun yaradıcılığında ana obrazının və ana xoşbəxtliyinin təsirli bir təcəssümü hesab olunur. Belə ki, rəssam tabloda gözqamaşdırıcı qızmar günəş şüalarında bərq vuran, allı-güllü cənub təbiəti qoynunda çəmənlikdə doğma balası ilə vaxt keçirən ana obrazını canlandırmışdır.

Qeyd edək ki, dəfələrlə müxtəlif sərgilərdə nümayiş olunan bu tablo SSRİ Rəssamlıq Akademiyasının gümüş medalına layiq görülmüşdür [Abdullayev, 2013: 14]. Rəssam “Uşaq dalınca” əsərində də gündəlik həyatın sadə, lakin mənəvi baxımdan dərin məna daşıyan bir anını təsvir etmişdir. Onun bu tablosunda balaca uşağını bağçadan götürmək üçün gələn və pəncərənin şüşəsini barmaqları ilə yüngülcə taqqıldadan ananın simasında təsirli bir səhnəni seyr etmiş oluruq.

M.Abdullayevin əməkçi qadınları təsvir etdiyi bütün əsərlərinin kompozisiyasında kollektiv qadın əməyinin ritmi və bu qadınların həmin atmosferə qatdığı canlılıq öz əksini tapmışdır. Rəssamın “41-ci ilin iyunu” triptixində də qadın obrazları kompozisiyanın əsas ideya yükünü daşıyır. Rəssam

burada müharibə illərinin çətin şəraitində əmək cəbhəsində çalışan qadınların gücünü, dözümünü və mənəvi möhkəmliyini həssas sənətkarlıqla ifadə etmişdir.



**Şəkil 1.** M.Abdullayev "41-ci ilin iyunu".



**Şəkil 2.** T.Salahov "Abşeron qadınları".

Kompozisiyanın mərkəzində dayanan qadın fiquru öz qaməti və duruşu ilə diqqəti dərhal cəlb edir. Onun belinə qoyduğu əli, bədəninin möhkəm plastikasını vurğulayır və obrazda qətiyyət, iradə və əmək əzmini ön plana çıxarır. Bu fiqur yalnız fərdi obraz deyil, bütövlükdə müharibə dövründə cəbhə arxasında çalışan Azərbaycan qadınlarının ümumiləşdirilmiş simvolu kimi təsvir olunub. Rəssamın bu əsərindəki qadın obrazları yalnız əmək prosesinin iştirakçıları kimi deyil, həm də müharibə illərində cəmiyyətin dayaq nöqtəsinə çevrilmiş güclü və iradəli insan obrazları kimi təqdim olunub. M.Abdullayevin "Çəltikçi qızlar", "Pambıq", "Azərbaycanın çay mütəxəssisləri", "Qış qayğıları" və digər əsərləri onun əmək mövzusuna həsr etdiyi ən xarakterik əsərlərdən hesab olunur. Bu əsərlərdə çəltik dəstələrini daşıyan, əmək alətləri ilə işləyən qadınların gündəlik zəhməti, əməksevərliyi süjetin əsasını təşkil etmiş, poetik və ümumiləşdirilmiş dildə təqdim edilmişdir. Rəssam "Tarla qəhrəmanı Şamama Həsənova" tablosunda "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüş Azərbaycan qadınının peşəsini vurğulamaqla bərabər həm də onun daxili dünyasını, hiss və duyğularını ifadə etmişdir. "Manqabaşçısı Rəxşəndənin portreti" əsərində də qadın qəhrəman qətiyyətli, zəhmətsevən, ən əsası isə nüfuzlu obraz kimi təqdim edilmişdir.

M.Abdullayevin qadın obrazlarını bəzən Qarabağ mühitində görürük. Rəssamın "Axşam" əsərində Şuşada gəzintiyə çıxan Qarabağlı qadınların zərifliyi və şəhər mühitinin romantik ab-havası duyulur. Yarandığı gündən uzun illər keçməsinə baxmayaraq, elə bil rəssam əsərini indicə tamamlayıb. İncə plastikaya malik olan bu əsərində rəssam obrazların qarayanız sifətlərində, bəyaz geyimlərində xüsusi cazibədarlıq tapmış, eyni zamanda qəhrəmanlarının mənəvi keyfiyyətlərini ifadə etmək üçün xoş və ürəkaçan boyalar işlətmişdir.

Bu gün Üzeyir Hacıbəylinin ev muzeyinin ekspozisiyasını bəzəyən tablolar içərisində M.Abdullayevin bəstəkara həsr etdiyi "Xeyir-dua" adlı süjetli tablosu istər mövzu, istərsə də bədii-estetik cəhətdən olduqca yaddaqalandır. Rəssam bu əsərində Azərbaycanın görkəmli şairəsi və xeyriyyəçisi Xan qızı Natəvanı həm ictimai nüfuz və dəyər sahibi, həm də sevgi və qayğı dolu qadın obrazı kimi canlandırmışdır. Belə ki, çoxfiqurlu kompozisiyaya malik bu tabloda xan qızının balaca Üzeyiri Qori Müəllimlər Seminariyasına ilk dəfə imtahan verməyə yola salması əks olunmuşdur. M.Abdullayevin

“Rəqqasə Əminə Dilbazinin portreti” əsəri Azərbaycan qadınının öz sənətinə bağlılığının bariz nümunəsidir. Əsərdə rəqqasənin gülüşü yalnız fiziki gözəlliyi deyil, həm də milli mədəniyyətimizdən doğan həyatsevərliyi əks etdirir.



**Şəkil 3.** N.Əbdürrəhmanov “Sevimli Naxışlar”.

Tahir Salahovun sərt üslubu ilə yaratdığı əsərlərinin təməlində işıq, xətt, eləcə də ritmin dayandığını görürük. Bu üslub xüsusiyyətləri onun “Abşeron qadınları” əsərində də aydın şəkildə duyulmaqdadır. Rəssamın ağ at üzərində, ağ geyimdə təsvir etdiyi “Aydanın portreti” əsərində atanın qızına olan sonsuz sevgisini hiss edirik. Rəssamın illər sonra yaratdığı “Şərq ulduzu Aydan” portretində isə atasının sənətini davam etdirən rəssam qadın obrazını görürük.

Nadir Əbdürrəhmanov həyatı boyunca dəfələrlə qeyd edirdi ki, yalnız öz yurdunda, Qarabağ dağlarında rahat və xoşbəxt çalışıb. Bu barədə rəssam qeyd edirdi: “Dağ kəndlərində bulaqların yanında toplaşan qadın və qızlara daim rast gəlmək mümkündür. Bu rayonun qızları gözəl paltarları xoşlayır və hər gün bu cür geyinirlər” [Əbdürrəhmanov, 2013: 41]. Beləliklə, rəssam ecazkar fırçası ilə “Dağlarda bahar”, “Dağlarda alaqaranlıq”, “Dağlı qadın”, “Səhər” kimi əsərlərini yaradır və qadın gözəlliyini yüksək sənətkarlıqla vəsf edir. O, “Dağlarda bahar” və “Səhər” əsərlərində baharın təravətini, torpağın oyanışını parlaq rəng çalarları ilə təqdim edərək qadın gözəlliyini bu mənzərə daxilində təqdim edib.xoşlayır və hər gün bu cür geyinirlər” [Əbdürrəhmanov, 2013: 41]. Beləliklə, rəssam ecazkar fırçası ilə “Dağlarda bahar”, “Dağlarda alaqaranlıq”, “Dağlı qadın”, “Səhər” kimi əsərlərini yaradır və qadın gözəlliyini yüksək sənətkarlıqla vəsf edir. O, “Dağlarda bahar” və “Səhər” əsərlərində baharın təravətini, torpağın oyanışını parlaq rəng çalarları ilə təqdim edərək qadın gözəlliyini bu mənzərə daxilində təqdim edib.

Rəssam “Dağlarda alaqaranlıq” əsərinin ərsəyə gəlməsi ilə bağlı xatirələrində qeyd edir: “Uşaq yaşlarımdan atamla birlikdə Laçın ətrafında yerləşən dağ rayonlarına səfərlər edirdim... Səfərlərim zamanı çoxlu etüdlər çəkirdim. Bir neçə il keçdi və mən uşaqlıq və gənclik illərindən qalan təəssüratları böyük kətan üzərində əks etdirmək qərarına gəldim. Beləcə “Dağlarda alaqaranlıq” əsəri meydana gəldi... Mən qızların arzuları, dağlardakı alaqaranlığın sükutu, təbiətin gözəlliyi barədə danışmaq istəyirdim” [Əbdürrəhmanov, 2013: 28]. Rəssam bu əsərində öz qəhrəmanlarını axşam istirahəti zamanı göstərir. Əsərdə təbiət sadəcə fon deyil, personajların doğma evi, yaşayış mühitidir.

N.Əbdürrəhmanov “Sevinc” əsərində qadın obrazını yalnız gözəllik simvolu kimi deyil, həm də həyatverici, qoruyucu və şəfqətli ana kimi təsvir edib. Rəssamın Azərbaycan Milli İncəsənət Mu-

zeyini bəzəyən "Sevimli naxışlar" əsərindəki ağ geyimli üç qadın obrazı isə milli xalça toxuma ənənəmizin zərif ifadəçiləri kimi göz oxşayırlar.



**Şəkil 4.** V.Səmədova "Aktrisa Leyla Bədirbəylinin portreti"



**Şəkil 5.** T.Tağıyev "Maral Rəhmanadənin portreti"

Tağı Tağıyevin Maral Rəhmanzadəni təsvir etdiyi portret əsəri Azərbaycan realist rəngkarlığının seçilən nümunələrindəndir. Əsər iki nəhəng fırça ustasının yaradıcılıq vəhdətini nümayiş etdirməsi baxımından da müstəsna əhəmiyyət kəsb edir. Əsərdə M. Rəhmanzadənin qamətli duruşu onun milli rəssamlıq tariximizdəki sarsılmaz mövqeyinin və sənətkar iradəsinin rəmzi kimi canlandırılmışdır. Milli rəssamlıq sənətimizdə Azərbaycan qadını məsələsinə toxunarkən, bu mövzunun konseptual baxımdan zənginləşməsində rolu olan Maral Rəhmanzadə, Vəcihə Səmədova, Xalidə Səfərova, Elmira Şahtaxtinskaya kimi qadın fırça ustalarının da fəaliyyəti xüsusi qeyd edilməlidir. Hələ tələbəlik illərində "Azərbaycan qadını keçmişdə və bu gün" adlı, on bir rəsmdən ibarət diplom işi üzərində işləyən Maral Rəhmanzadə "İstirahət vaxtı", "Pambıqçı qızlar", "Sağıcı qadın. Xınalıq" kimi əsərlərində qadınları məğrur, ruhən yenilməz əks etdirmişdir. Yaradıcılığının bütün dövrlərində qadın mövzusuna yüksək sənətkarlıqla yanaşan rəssam, eyni zamanda, öz avtoportretlərini də yaratmağa maraq göstərmişdir [Rəhmanzadə, 2013: 12]. Müasir Azərbaycan incəsənətinin qızıl fonduna daxil olan "Aktrisa Leyla Bədirbəylinin portreti" Vəcihə Səmədovanın yaradıcılığında əsaslı mərhələ kimi xarakterizə olunur. İfadəli kompozisiyası və rəng quruluşuna görə rəssamın digər əsərləri arasında fərqlənən bu portret milli təsviri sənətimizin ən uğurlu nümunələrindəndir.

**NƏTİCƏ**

XX əsr Azərbaycan rəngkarlığında Tahir Salahovun təqdim etdiyi məğrur və Mikayıl Abdullayevin fırçasından çıxan xalq ruhlu qadın surətləri ilə formalaşan sənət xətti, müasir dövrdə daha dərin fəlsəfi müstəviyə keçid etmişdir. Təsviri sənətdə qadın obrazının keçdiyi bu inkişaf yolu həm də ictimai şüurun təzahürü kimi çıxış edərək, milli qadın idealını yeni bir mərhələyə yüksəltmişdir. Bu gün

çağdaş rəssamların yaradıcılığında Azərbaycan qadını bir tərəfdən milli ornamentlərin, kəlağayı və ənənəvi geyim mədəniyyətinin poetik ruhunu qoruyub saxlayır, digər tərəfdən isə qlobal dünyanın aktiv siması kimi modern çalarlarla təqdim edilir.

## ƏDƏBİYYAT


Mikayıl Abdullayev. Sərvət silsiləsi. (2013). Şərq-Qərb.

Maral Rəhmanzadə. Sərvət silsiləsi. (2013). Şərq-Qərb.

Nadir Əbdürrəhmanov. Sərvət silsiləsi. (2013). Şərq-Qərb.

Tağı Tağıyev. Sərvət silsiləsi. (2013). Şərq-Qərb.

Tahir Salahov. Sərvət silsiləsi. (2013). Şərq-Qərb.

Vəcihə Səmədova. Sərvət silsiləsi. (2013). Şərq-Qərb.



*(AMEA-nın müxbir üzvü, professor Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 25.05.2026**
**Son variant 03.06.2026**